# Bakıda birinci milli BMT modeli konfransı keçirilir





Fevralın 20-də Bakıda birinci milli BMT modeli konfransı işə başlayıb.

Konfransda 20-dən çox ali təhsil müəssisəsi və orta məktəbdən 350-dək gənc iştirak edir.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov konfransı açaraq onun gənclərin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edib ki, gənclər Azərbaycanın gələcək inkişafı üçün əsas qüvvədir. Bu baxımdan Azərbaycanda gənclərin qərarların qəbul edilməsində fəal iştirakının təmin edilməsi çox vacibdir.

Nazir bildirib ki, müxtəlif ölkələrin fərqli maraqları və prioritetləri var. Bizim prioritetimiz təhsilli və vətənpərvər gənclər yetişdirməkdir. Gənclər həm milli, həm də beynəlxalq səviyyədə ölkənin inkişafına, onunla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına mühüm töhfə verə bilərlər. Bu konfrans gəncləri yeni fəaliyyətə və yeni nailiyyətlər əldə etməyə həvəsləndirəcək. Bu təcrübə gənclər üçün vacib əhəmiyyət kəsb edir.

BMT-nin İnkişaf Proqramının Azərbaycanda rezident nümayəndəsi Ercan Murat bildirib ki, Azərbaycan dövləti gənclər siyasətinə mühüm əhəmiyyət verir. Bu cür tədbirlər vasitəsilə Azərbaycan gənclərinə gələcəyi müzakirə etmək və yeni ideyalar irəli sürmək üçün bir platforma yaradılır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bu yeni ənənənin Azərbaycanda başladılmasının gənclərin inkişafına mühüm töhfə verəcəyini vurğulayıb. Nazir Azərbaycanın beynəlxalq təşkilatlarda, o cümlədən UNESCO-dakı fəaliyyətindən danışıb. Bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verir və ölkəmiz bu istiqamətdə bir çox beynəlxalq tədbirlərə və forumlara evsahibliyi edir.

Təhsil naziri Mikayıl Cabbarov konfransın Azərbaycanda keçirilməsinin gənclərin gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Ölkəmizin regional və qlobal rəqabətdə üstünlük qazanması üçün təhsildə keyfiyyətin artırılmasının vacib olduğunu bildirən M.Cabbarov dövlətimizin bu sahənin inkişafına göstərdiyi xüsusi diqqət və qayğıdan danışıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Fuad Muradov konfransın önəmindən danışarkən bu modelin gənclərə yeni imkanlar açacağını vurğulayıb.

Fevralın 23-də başa çatacaq konfrans panel iclaslarla işini davam etdirib.

**AZƏRTAC**